# AZƏRBAYCAN

ƏDƏBİ-BƏDİİ JURNAL



8

2009

*MAQSUD İBRAHİMBƏYOV.* Mənim nəslim otuzuncu illərdəndir, mən 35-ci ildə dünyaya gəlmişəm.

Qırx iki il əvvəl Anarla tanış olmuşam və həmin vaxtlardan bəri o, diqqətimi cəlb etməkdədir.

İlk dəfə Moskvada, Ali ssenari kurslarında görüşdük. Havada azadsevərlik, açıqfikirlilik ruhu dolanırdı, biz yaxın ünsiyyətdə olur, o vaxt geniş tamaşaçılar görə bilmədiyi filmlərə baxır, öz etüdlərimizi yazırdıq, onları da ölkənin ən intellektual sənətçiləri, yaradıcı başbilənləri dəyərləndirirdilər. Bizə verilən təqaüd normal dolanışığımıza bəs eləyirdi. Unudulmaz çağlar idi...

Anarda mənim xüsusən bəyəndiklərim nələrdir? Onda hər şey incə zövqlə cilalanmışdır, bu, mənim üçün çox vacibdir. Və bütün bu ötən illər ərzində o, bir dəfə də olsun yolundan sapmamışdır, Xalq Cəbhəsi hakimiyyətə gələndə ictimai iqlim misli görünməmiş ajiotaj həddinə çatdı. Qeyd etməliyəm ki, ortalama-statistik milli demokrat oğrusayağı və yalançı bir məxluqdur və belələri iqtidara sahib olanda özbaşınalıq baş alıb getdi. Amma Anar daima özünü saleh, abırlı adam aparmalı olduğu kimi apardı, o vaxt da Əliyevin möhkəm hakimiyyəti dövründə də Anar səbatlı insan olaraq qaldı. Zahirən yumşaq, loyal kimi görünsə də, bir dəfə də olsun hər hansı konyunktur şirniklәndirməyə uymamışdır. Möhkəm şəxsiyyət özülü içində, dərinlikdə gizlədilmişdir.

Baxın, məsələn, boğaz yırtırdılar, çığır-bağır salırdılar ki, Yazıçılar Birliyi nəyimizə gərəkdir?

Necə yəni, nəyimizə? Bu ki apaydındır, maraqlar üzrə klublar varsa, niyə də yazıçıların öz ocağı olmasın? Yazıçılar evlərinə vergilər şamil edilmirdi. Yazıçılara hörmətlə, ehtiramla yanaşırdılar. Hətta tiran, diktator, xalqların qənimi də sənət adamlarına inayət göstərirdi...

...Azərbaycanda oxucunun yoxa çıxdığını deyən varsa, ağ yalandır. Oxuyan elə indi də oxuyur, uşaqları da mütaliəyə həvəs göstərir.

Puşkini də, Çexovu da, Mopassanı da oxuyurlar. Yeri gəlmişkən, Anarı da...

... Nələr çəkdiyinin bahasına olsa da, Anar dözüm gətirdi. Yazıçılar Birliyinin bağlanmasına yol vermədi. Yazıçılar qurultayına bir səlahiyyətli quldurbaşı soxulub qələm sahiblərinə nə və necə etmələri olduqlarından "dərs verəndə" də, Anar səbrini basıb dözdü... Belə şey də baş vermişdi... Və biz bu vəzzariyyətə qulaq asmalı olduq, mən də oturub susurdum, Anar da... Müsibət idi... Buna baxmayaraq, əlimizdən gələni elədik.

Anar mənim üçün mən onun üçün olduğumdan daha yaxşı dostdur, o, dostluğun qədrini bilir. Vəfalıdır, vəfadardır.

Bu, həqiqətdir.

Diqqətcil, nəzakətli, deyərdim ki, kövrək, səmimi canıyananlığa qadirdir. Pessimist demək olarmı ona?

Eh, həyatın elə dönəmləri olur ki... "Sizsiz" kitabı nəhəng şəxsi mənəvi sarsıntıdan yaxa qurtarmaq, bu dərdi ilahi müstəviyə keçirmək cəhdidir... Yox, oradakı bədbinlik deyil, müdriklikdir. Yəqin, o, bir çoxlarından

əvvəl, məndən əvvəl ölüm haqqında düşünməyə başlamışdır. Bu da müdriklik əlamətidir.

Onun parlament fəaliyyəti çox səmərəli olmuşdur. Milli Məclisdəki deputatlar müxtəlifdir. Bəziləri öz deputatlığından sırf praqmatik məqsədlə, öz firavanlığı naminə faydalanırlar.

Mədəniyyət üzrə komissiyanın sədri olaraq, Anar fəal işə qatılmış, daima çox gərəkli və faydalı təkliflər irəli sürmüş, nəticəyə nail olmaq üçün səylərini əsirgəməmişdir. O, öz borcunu yerinə yetirirdi.

İstərdim ki, bilməyənlər, nəhayət, anlasınlar: deputatlıq yazıçıya yox, cəmiyyətə yazıçının deputatlığı lazımdır. Çünki yazıçı yetişmiş problemləri, ümumi prosesləri başqalarından daha əhatəli, daha iti gözlə görür. Anar gördüklərini görən yoxdur, əksəriyyət ayrıntıları, iqtisadiyyatı, hüquq pozuntularını və s. görür. O, isə bütöv mənzərəni görür. Sabah hansısa "yağlı" yerə buraxılacağına söz verib bu gün kimisə tərifləməyə vadar etmək olmaz onu. Kimisə müsbət dəyərləndirirsə, demək, həqiqətən də belə düşünür. Odur ki, onun sözünə, etibar var.

İctimai sahədə Anarın ən mühüm son uğurlarından biri klassikanın yenidən nəşr olunmasıdır. Belə bir layihənin yükünü qaldırmağa az adamın gücü çatardı. Çünki bu mətləbə ciddi bələd olan da azdır. Anar isə ən başlıca keyfiyyətlərə - estetik zövqə, istedada bu ya digər əsərin, sənətkarın önəmliliyini anlamaq qabiliyyətinə malikdir.

...Aravuranları, intriqabazları görməyə gözü yoxdur.

Pərdəarxası çəkişmələrə, badalaq vurmağa nifrət edərək o, heç bir "donos" niyyətli "kollektiv çağırışları", yaxud qarayaxma yazıları imzalamayıb, vəzifə sahiblərinin "qılığına" girməyə cəhd göstərməyib. Hər şey haqqında öz adından öz fikrini söyləyir, heç kəsə həsəd aparmır və dözümlülüyünü, tolerantlığını aləmə car çəkmədən özünü əsilzadə kimi aparır.